**Anadolu Türk Eğitim Dergisi**
**Anatolian Turkish Journal of Education**
**ISSN:2867-5314**

**Yıl/Year: 2024 Cilt/Volume: 6 Sayı/Issue: 1 (Nahçıvan Özel Sayısı) ss/pp. 110-118**

**Makale Geliş Tarihi:** 11/03/2024
**Makale Kabul Tarihi:** 25/05/2024
**Makale YayınTarihi:** 05/06/2024
**Makale Türü:** Orijinal Araştırma Makalesi

# 1905-1907-Cİ İLLƏRİN RUS İNQİLABI DÖVRÜNDƏ NAXÇIVAN HADİSƏLƏRİ*

**Abdulla MUSTAFAYEV**
Doç. Dr. Naxçıvan Dövlət Universiteti, Ümumi Tarix kafedrası,
mustafayevabdulla78@gmail.com, ORCİD No: 0009-0009-2104-8533

**Xülasə**

Məqalənin yazılmasında əsas məqsəd çar Rusiyasının Qacarlar və Osmanlı dövlətləri ilə apardığı müharibələr, bu müharibələrin nəticəsində imzalanmış Gülüstan (1813), Türkmənçay (1828), Ədirnə (1829) sülh müqavilələrinin müvafiq maddələrinə əsasən ermənilərin köçürülərək Azərbaycanın İrəvan, Qarabağ, Naxçıvan torpaqlarında yerləşdirilmələrindən sonra Azərbaycan türklərinə qarşı həyata keçirdikləri soyqırım siyasətini araşdırmaqdır. Məqalədə qeyd edilmişdir ki, çar Rusiyası tərəfindən qədim Azərbaycan torpaqlarında, o cümlədən Naxçıvanda yerləşdirilən ermənilər bütün baş verən proseslərdən ruhlanaraq "Böyük Ermənistan" yaratmaq xülyalarına qapılmış və bu süni ideya uğrunda mübarizəyə başlayaraq qısa zamanda yerli əhaliyə qarşı zorakılıq hərəkətləri tətbiq etmiş, onları sıxışdırmaqla doğma yurd-yuvalarından didərgin salmışlar. XX əsrin əvvəllərində istər siyasi, istər iqtisadi, istərsə də təşkilati cəhətdən hazırlıqlarını tamamlayan mənfur ermənilər Azərbaycanın əksər bölgələrində, o cümlədən Naxçıvanda 1905-1907-ci illərdə qırğınlar həyata keçirdilər. Bakıda uğradıqları məğlubiyyətin əvəzini Naxçıvanda çıxmağa çalışan ermənilər həm İrəvan ermənilərindən, həm də çar Rusiyasının bölgədə yerləşdirilən məmurlarının köməkliyi ilə qırğınlar törətmiş, talanlar etmişlər. Lakin təəssüf hissi ilə qeyd etmək lazımdır ki, həmin dövrdə baş verən hadisələr barədə məlumatlar çox azdır. Belə ki, bir sıra dövri mətbuat səhifələrində olan yazılardan, M. S. Ordubadinin şahid ifadələri əsasında yazdığı "Qanlı illər", M. M. Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsərlərindən başqa demək olar ki, mənbələr yox dərəcəsindədir. O dövrün hadisələrini özündə əks etdirən məlumatların azlığının səbəblərindən biri kimi, sovet dönəmində Azərbaycanda olan arxiv idarələrində çalışan ermənilərin həmin mənbələri məhv etməsi kimi göstərilmişdir. Sonda belə bir nəticəyə gəlinmişdir ki, tarixi gerçəkləri saxtalaşdırmağa, təhrif etməyə adət etmiş ermənilər guya ki, 1915-ci ildə Osmanlı dövləti ərazisində soyqırıma uğradıqlarını dünya dövlətlərini inandırmağa çalışaraq əslində Anadolu, Cənubi və Şimali Azərbaycan ərazisində, o cümlədən mövzumuzun obyekti olan Naxçıvanda türklərə qarşı həyata keçirdikləri soyqırım və deportasiya siyasətini ört-basdır etməyə çalışırlar. Lakin ermənilərin bütün səylərinə baxmayaraq, Osmanlı, Azərbaycan, Rusiya, İngiltərə və dünyanın digər dövlətlərinin arxivlərində bu gün də saxlanılmaqda olan materiallar, hətta erməni müəlliflərinin əsərlərində olan məlumatlar əslində ermənilər tərəfindən türk əhalisinə qarşı soyqırımı siyasətinin həyata keçirildiyini sübut edir.

**Açar sözlər:** Böyük Ermənistan, Soyqırımı, Naxçıvan hadisələri, Çar Rusiyası, Türksüz Ermənistan

# THE EVENTS OF NAKHCHIVAN DURING THE RUSSIAN REVOLUTION OF 1905-1907

**Abstract**

The main purpose of writing the article is the wars waged by tsarist Russia with the Khajars and the Ottoman states, as well as the transfer of Armenians to the lands of Iravan, Karabakh, and Nakhchivan in Azerbaijan, according to the relevant articles of the Gulustan (1813), Turkmenchay (1828), and Edirne (1829) peace treaties signed as a result of these wars. to investigate the genocidal policy they carried out against. It is mentioned in the article that the Armenians who were settled by Tsarist Russia in the ancient lands of Azerbaijan, including Nakhchivan, were inspired by all the happening processes and got caught up in the fantasy of creating "Great Armenia" and started fighting for this artificial idea and soon applied violence against the local population, forcing them to return to their native land. - were displaced from their nests. At the beginning of the 20th century, the hated Armenians, who completed their political, economic, and organizational preparations, carried out massacres in most regions of Azerbaijan, including Nakhchivan, in 1905-1907. Armenians trying to make up for their defeat in Baku in Nakhchivan committed massacres and looted with the help of Armenians from Yerevan and officials of Tsarist Russia stationed in the region. However, it should be noted with regret that there is very little information about the events that took place in that period. So, apart from the articles in a number of periodical press pages, "Bloody Years" written by M. S. Ordubadi based on witness statements, and "Armenian-Muslim conflict in 1905-1906" by M. M. Navvab, there are almost no sources. One of the reasons for the paucity of information reflecting the events of that period is the destruction of those sources by the Armenians working in the archive offices in Azerbaijan during the Soviet period. In the end, it was concluded that the Armenians, who are used to falsifying and distorting historical facts, trying to convince the countries of the world that they suffered a genocide in the territory of the Ottoman state in 1915, in fact, in the territory of Anatolia, South and North Azerbaijan, including Nakhchivan, which is the object of our topic, lived against the Turks. they are trying to cover up their genocide and deportation policy. However, despite all the efforts of the Armenians, the materials stored in the archives of Ottoman, Azerbaijan, Russia, England and other countries of the world, even the information contained in the works of Armenian authors, prove that the policy of genocide against the Turkish population was actually carried out by the Armenians.

**Keywords:** Greater Armenia, Genocide, Nakhchivan events, Tsarist Russia, Armenia without Turks

**Atıf / Citation**

Mustafayev, A. (2024). 1905-1907-çi İllərin Rus İnqilabı Dövründə Naxçıvan Hadisələri. *Anadolu Türk Eğitim Dergisi*, *6*(1), 110-118.
Mustafayev, A. (2024). The Events of Nakhchıvan During The Russian Revolution of 1905-1907. *Anatolian Turkish Journal of Education*, *6*(1), 110-118.

---

* Bu çalışmada "Yükseköğretim Kurumları Bilimsel Araştırma ve Yayın Etiği Yönergesi" kapsamında uyulması belirtilen tüm kurallara uyulmuştur.

*Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində Naxçıvanın uzun müddət tam təcrid və ağır blokada şəraitində olduğu vaxtlarda belə, qəhrəman əhalisi bu qədim Azərbaycan torpağını işğal təhlükəsindən qurtarmış, Azərbaycanın müstəqilliyi uğrunda atdığı cəsarətli addımlarla milli dövlətçiliyin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsi naminə fədakarlıq nümayiş etdirmişdir.*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

## Problemin Qoyuluşu

XIX əsrin əvvəllərində baş verən hadisələr Azərbaycan xalqının tarixinə qanlı hərflərlə yazılaraq onun sonrakı taleyində sağalmaz izlər buraxdı. Belə ki, Rusiyanın Qacarlar dövləti ilə apardığı müharibələr Gülüstan və Türkmənçay sülh müqavilələri ilə dövlətimizin nəinki iki yerə parçalanması ilə, eyni zamanda xristian ermənilərin torpaqlarımıza köçürülməsi, ərazimizdə "erməni vilayəti"nin və nəhayət "Ermənistan" adlı bir süni dövlətin yaradılması ilə nəticələndi. Bunula da Azərbaycan xalqının XX əsrboyu başına gətiriləcək bəlaların, faciələrin, soyqırım tarixinin əsası qoyulmuş oldu.

Çar Rusiyası tərəfindən torpaqlarımızda yerləşdirilən ermənilər bütün baş verən proseslərdən ruhlanaraq "Böyük Ermənistan" yaratmaq xülyalarına qapıldılar və bu süni ideya uğrunda mübarizəyə başladılar. Bu məqsədlə də ilk növbədə torpaqlarında yerləşdirildikləri, zorla qonşu edildikləri xalqı-yerli azərbaycanlıları doğma torpaqlarından qovmağa, türk mənşəli toponimləri özününküləşdirməyə, yəni erməniləşdirməyə cəhdlər etdilər və təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, buna nail oldular.

Xalqımızın tarixində bir qara ləkə olan Gülüstan və Türkmənçay sülh müqavilələrinin müvafiq maddələri ilə torpaqlarımızda yerləşdirilən ermənilər qısa zaman kəsiyində yerli əhalini sıxışdırmağa başladılar. Rusiya diplomatı və yazıçısı olan A.S.Qriboyedovun sözləri ilə desək, "...əsasən müsəlman torpaq sahiblərinin ərazilərində..." yerləşdirilən ermənilər "...yavaş-yavaş müsəlman əhalisini ərazilərdən sıxışdırıb çıxarmağa başlamışdılar"(8).1828-ci il oktyabrın 1-də Qriboyedov tərəfindən Paskeviçə göndərilən bir məktubda da ermənilərin köçürülmələri ilə qarışıqlıqların və sıxıntıların baş verməsi və yerləşdirildikləri ərazilərdən müsəlman əhalisinin didərgin düşmələri qeyd olunurdu (Arzumanlı. 1998: 25-32). Bununla da Azərbaycan xalqının XX əsr tarixində qanlı hadisələrlə müşayiət olunan qaçqınlıq həyatının başlanğıcı qoyuldu. Məhz həmin dövrdə 100 ailə Qaraqalpaqlardan, 300 ailə ayrımlardan Qarsa, 600 ailə Uluxanlı tayfasından Bəyazidə, 200 ailə çobankərəlilərdən Türkiyə ərazisinə qaçmaq məcburiyyətində qalmışlar. Bu siyahını artırmaq olar, çünki mənbələrdə kifayət qədər materiallar saxlanılmaqdadır (Arzumanlı, 1998: 19).

Çar Rusiyasının köməkliyi ilə ermənilərin köçürülərək Azərbaycanın İrəvan, Qarabağ və Naxçıvan ərazilərində azərbaycanlıların evlərində yerləşdirilmələri nəticəsində burada yaşayan yerli əhalinin böyük əksəriyyəti öz doğma yurd-yuvalarından didərgin salındılar, onlara məxsus kəndlər yox edildi, əvəzində isə yüzlərlə erməni yaşayış məskənləri ortaya çıxdı. "Ocaq" kitabının müəllifi, qatı daşnak Zori Balayanın da məlum əsərində qeyd edildiyi kimi, "1828-ci ildə məşhur Türkmənçay müqaviləsi olmasaydı, rus əsgərləri olmasaydı, günümüzdə müasir kənd və şəhərlərə çevrilən yüzlərlə yeni yaradılan erməni yaşayış məskənləri olmayacaqdı"(8).

Azərbaycan torpaqlarında, o cümlədən Naxçıvanda yerləşdirilən ermənilərin 1905-1907-ci illərdə yerli əhaliyə qarşı həyata keçirdiyi soyqırımı hərəkətlərinin araşdırılması əsas məqsədlərimizdəndir.

## Problemin Öyrənilməsi

Müraciət etdiyimiz mövzu ilə əlaqədar çox təəsüflə qeyd etmək lazımdır ki, ermənilərin adı çəkilən ərazilərdə, xüsusilə də Naxçıvanda törətdikləri qanlı hadisələr haqqında o dövrün mətbuat səhifələrində çox az sayda qəzet məqaləsi və arxiv sənədləri istisna edilməklə materiallar demək olar ki, yox dərəcəsindədir. Xüsusilə vurğulamaq lazımdır ki, arxiv fondlarında olan materialların böyük əksəriyyəti sovet dönəmində burada işləyən ermənilər tərəfindən bilərəkdən məhv edilmiş, əvəzində saxta sənədlər yerləşdirilmişdir.

Bu gün bizim əlimizdə 1905-07-ci illərdə baş vermiş hadisələrin tarixi haqqında ən obyektiv və ümumiləşdirilmiş mənbə görkəmli yazıçı Məmməd Səid Ordubadinin Ağa Murtuza Muxtarovun ianəsi ilə nəşr edilmiş "Qanlı illər" adlı sənədli kitabıdır. Qeyd etmək lazımdır ki, bu əsər hadisələrin qızğın çağında, çoxsaylı şahid ifadələri və 245 müxbir məktubları əsasında, yazıçının da özünün qeyd etdiyi kimi, "hər cür

şəxsi və milli qərəzdən uzaq olub hər nöqtədə üz vermiş faciə və hadisələr olduğu kimi" yazılmışdır (Ordubadi, 1991: 6). Müəllifin kitabı yazmaqda əsas məqsədinin "müsəlman və ermənilərin iki il ərzində törətdiklərini söyləmək", "müsəlmanların elmsizlik və anlaşılmazlıq səbəbindən bu bəlalara düşdüyünü deyib, ermənilərin də bir para yazıçıların xam xəyallarına qurban olduqlarını onlara bildirmək" olduğu bildirilir. Buna görə də M. S. Ordubadi ümid edirdi ki, hər iki millət öz səhv və xətasını düşünmək üçün, hörmətli erməni yazıçıları bu bitərəfanə olan əsəri rus yainki erməni dilinə tərcümə edib, vətən övladlarına bir intibah gül dəstəsi olaraq əmanət qoyacaqlar(Ordubadi, 1991: 71).

Kitab ilk dəfə 1912-ci ildə nəşr edilmiş, lakin sonralar sovet dövründə bir daha işıq üzü görməmiş, hətta belə bir kitabın mövcudluğunu yaddan çıxartmağa çalışmışlar. Çünki erməni millətçilərinin və onların havadarlarının iç üzünü açan faktlar rəsmi ideologiyanın qanunlarına, "erməni və azərbaycanlıların çoxəsrlik dostluğu" haqqında cəfəng konsepsiyaya uyğun gəlmədiyinə görə kitabın nəşri qadağan edilmişdir. Kitab yalnız 80 ildən sonra, yəni, Azərbaycan müstəqilliyini yenidən qazandıqdan sonra-1991-ci ildə yenidən nəşr edilərək işıq üzü görmüşdür.

## Giriş

"Böyük Ermənistan" ideyasından ruhlanan ermənilər XX əsrin lap başlanğıcında-1905-1907-ci illərdə yaranmış şəraitdən, beynəlxalq və Rusiya daxilində gedən proseslərdən məharətlə istifadə edərək xalqımıza qarşı soyqırım və deportasiya siyasətinin ilk mərhələsini həyata keçirdilər. Ermənilərin əvvəlcədən planlaşdırdıqları kimi, ilk növbədə Bakıda başlanan vəhşilikləri qısa müddət ərzində Azərbaycanın demək olar ki, bütün bölgələrini, o cümlədən də qədim Naxçıvan diyarını əhatə etdi. Bakıda və Azərbaycanın digər bölgələrində baş verən hadisələri işıqlandırmaq məqsədimiz olmadığı üçün biz yalnız Naxçıvanla bağlı məqamlara toxunacağıq.

Hadisələrin baş verməsinin əsas səbəbələri barədə Rusiya və Qafqaz mətbuatı ilə yanaşı, Avropa və Amerika mətbuatında bir-birinə zidd, təzadlı fikirlərin olduğunu göstərən M.S.Ordubadi milli münaqişələrin və qan tökülməsinin aşağıdakı dörd əsas səbəbini göstərmişir: Bunlardan birincisi, "Daşnaksütyun partiyasının müstəbid bir idarə üsulunu təşkil etməklə Qafqazda bir sıra qanlı teatrların oynanılmasıdır". İkinci, "Məhəlli hökumət məmurlarının müharibə zamanlarında etinasızlığıdır. Böyük Rusiya inqilabına görə mərkəzi hökumətin başı özünə qarışdığından xırda məmurlar erməni-müsəlman ixtişaşlarının sakitləşməsi üçün bir tədbirdə bulunmadılar". Hətta, ermənilərin terrorları qorxusundan bir tərəfdən əldə saxlayıb, digər tərəfdən növbənöv vicdansızlıqlar etməkdə idilər. Üçüncü səbəb isə müsəlmanların elmsizliyi, silahsız olması və müasir işlərdən xəbərsizliyidir. Nəhayət faciənin dördüncü səbəbi ermənilərin avtonomiya-idarə muxtariyyəti kimi əsassız xəyallarıdır. Erməni başbilənləri və onların havadarları müsəlmanları təzyiq ilə baba yurdlarından qovmaq, erməni və müsəlmanı müharibə səbəbinə bir-birindən ayırmaq niyyəti ilə Bakı quberniyasının və Gəncə quberniyasının aran yerlərini müsəlmanlara verib, İrəvan quberniyasının, Gəncə quberniyasının yaylaq və dağbasar ölkələrini ermənilərə verib, bunları da Qars sancağı ilə birləşdirib, erməni səltənəti təşkil etmək idi(Ordubadi, 1991: 8-11).

Ermənilərin bu qara niyyətlərinin həyata keçirilməsində əsas maneə təbii ki, əhalisinin əksəriyyətini türklər təşkil etdiyi Naxçıvan bölgəsi idi. Ümumiyyətlə bu bölgə əlverişli coğrafi-siyasi mövqeyə, zəngin təbii ehtiyatlara, bol taxıl mənbələrinə malik bir diyar kimi ermənilərin əsassız muxtariyyat iddialarının əsasında dayanırdı. Bakıda acınacaqlı məğlubiyyətlə üzləşən daşnaklar əsas diqqətlərini Naxçıvana yönəldib, burada etnik, hərbi-siyasi vəziyyəti öz xeyirlərinə dəyişmək üçün fəal hərəkətlərə başladılar. Bu məqsədlə "Daşnasütyun" partiyasının gizli təşkilatları bölgədə erməni əhalisi arasında geniş təbliğat və pozuculuq işləri aparır, İrəvandan silah-sursat gətirərək, onları sürətlə silahlandırır, yerli əhaliyə qarşı təhrik edirdilər.

Ermənilər Bakı məğlubiyyətinin əvəzini çıxmaq üçün Naxçıvanda və İrəvan quberniyasının digər yerlərində azərbaycanlılara qarşı təcavüzkar hərəkətlərə başladılar. Çar məmurlarının və daşnakların, xüsusilə də İrəvan ermənilərinin təhrikləri ilə Naxçıvanda əvvəlcədən silahlanaraq hazır vəziyyətdə olan ermənilər qırğınlara başladılar. Mir Möhsün Nəvvabın məlum əsərində qeyd edildiyi kimi, "Elə ki, İrəvanın fitnə-fəsad törədən erməniləri Naxçıvana gəldilər, orda vəziyyət gərginləşdi. Naxçıvan erməniləri neçə illərdən bəri tədarük etdikləri vuruş sursatlarını- topları, bombaları, beşaçılan tüfəngləri və s. növbəti qırğın üçün hazırlamağa başladılar" (Nəvvab, 1993: 16).Bütün hazırlıqlardan sonra dinc əhalini güllələbaran edən ermənilərin qarşısında silahsız müsəlmanlar M.M.Nəvvabın da qeyd etdiyi kimi, fürsətdən istifadə edərək hücuma keçib onların əllərindəki "tüfəng və patrondaşlarını" əllərindən aldılar. Qısa müddətdə şəhərdə erməni azğınlıqlarının qarşısını alan yerli əhali onların vəhşiliklər törətdikləri kəndlərə hücum edərək

daşnakları məğlubiyyətə uğratdılar. Böyük Badamlı kəndinin ermənilərі müsəlmanların qarşısına çıxaraq kəlmeyi-şəhadət gətirmiş və könüllü surətdə müsəlmanlığı qəbul etmişdilər. Baxmayaraq ki, həmin dövrdə erməni qəzetləri ermənilərin zorla müsəlman dinini qəbul etməyə məcbur edildiklərini yazsalar da, İrəvan qubernatoru Əlixanov ilə görüşən kənd sakinləri könüllü surətdə bunu etdiklərini bildirmişdilər(Nəvvab, 1993: 16-17).

Qeyd etdiyimiz kimi, Bakıda baş verən fevral hadisələri öz növbəsində Naxçıvanda da geniş əks-səda doğurmuşdu. Əhalini sakitləşdirmək və mümkün toqquşmaların qarşısını almaq məqsədi ilə İrəvandan arximandrit Haregin Satunyan və Böyük xan İrəvanlı Naxçıvana gələrək, erməniillərlə azərbaycanlılar arasında sülh yaratmaq məqsədilə bir sıra görüşlər keçirmişdilər. Qarşıdurmanı aradan qaldırmaq məqsədi ilə şəhərdə Cəfərqulu xan Naxçıvanskinin başçılığı ilə hər iki millətin nümayəndələrindən ibarət komissiya yaradılmışdı (7. 1906: 25 fevral, № 44).

1905-ci il may ayının 5-də Cəhri kəndinin üç nəfər azərbaycanlı sakininin Şıxmahmud kəndindən keçərkən orada yaşayan ermənilər tərəfindən ağır yaralanmaları xəbəri Naxçıvan şəhərinin əhalisi arasında həyəcana səbəb oldu. Bu hadisədən cəmi iki gün sonra, yəni mayın 7-də əhalinin cəmi üçdə bir hissəsini ermənilərin təşkil etdiyi Tumbul kəndində daha bir azərbaycanlı qətlə yetirildi. Növbəti gün-mayın 8-də İrəvan vitse-qubernatoru Baranovski, İrəvan şəhər rəisi Melik-Ağamalov və Naxçıvan şəhər rəisi Cəfərqulu xan Naxçıvanski baş verən hadisələr ilə yaxından tanış olmaq məqsədilə Naxçıvana gəlirlər. Azərbaycanlı əhali onların yanına gələrək ermənilərin hərəkətlərindən şikayət edirlər, lakin hakimiyyət orqanları onların müdafiəsi üçün heç bir əməli addım atmadılar. Elədikləri cinayətlərin qarşısında cəzasız qalmalarından ruhlanan ermənilərin təxribatları daha artır. 9 may 1905-ci ildə naxçıvanlı Fətulla Hacı Bayramoğlu Əliabad erməniləri tərəfindən gecə vaxtı yeddi güllə yarası ilə qətlə yetirilir. Bu xəbər də şəhərdə böyük əks-səda yaratdı.

"Kaspi" qəzetinin 25 fevral 1906-cı il tarixli sayında "Naməlum" (Neizvestnıy) imzası ilə Naxçıvan hadisələrinə həsr edilmiş yazıda Əliabad kəndinin erməniləri tərəfindən Fətulla Hacı Bayram oğlunun mayın 6-sı qətlə yetirilməsi, Tumbulda isə qətlin ayın 9-da baş verməsi qeyd olunurdu. Həmçinin göstərilirdi ki, İrəvan vitse-qubernatoru ilə Cəfərqulu xan Naxçıvana ayın 10-u gecə, ertəsi gün səhəri isə arximandrit Karapet və Melik- Ağamalov gəlmişdilər(7. 1906: 25 fevral, № 44).İki gün sonra, yəni mayın 11-də Kültəpə kəndində Xaçatur adlı bir varlı sakin erməni fədailəri tərəfindən ailəsiylə birlikdə qətlə yetirilir(Ordubadi, 2007: 17).

Ermənilər bu cinayəti azərbaycanlıların üstünə yıxmaq istəsələr də buna nail ola bilmədilər. Həmin gün ermənilər bütün şəhəri atəşə tutdular. Atışma bütün gecəni davam etdi. Azərbaycanlılar ermənilərə tək-tək atəşlə cavab versələr də onlar arasında tələfat olmadı. 12 mayda azərbaycanlılar vitse qubernatordan əncam çəkməsini tələb etdikdə, o "əgər onlar (ermənilər-A.M.) sizə atəş açır, siz də tutub onların tapançalarını alınız" cavabını vermişdi. Azərbaycanlılar ermənilərdən silahları almağa cəhdlər göstərsələr də, erməni fədailəri bunun cavabında bazarda müsəlmanları güllə-baran etməyə başladılar. Hadisə yerinə gələn vitse-qubernator, Cəfərqulu xan, Ağamalov, pristav Mehdi xan Ordubadskini də ermənilər atəşə tutmağa basdılar. Atışmalar zamanı beş nəfər azərbaycanlı ölmuş, bir neçəsi yaralanmış, ermənilərdən də tələfat olmuşdu.

Lakin həmin gün Naxçıvanda baş verən hadisə Qafqaz mətbuatında tam təhrif olunmuş şəkildə verilmişdi. Məsələn "Kavkaz" qəzeti yazırdı ki, şəhər rəisi Rəhim xan Naxçıvanski və digər nüfuzlu tatarların ehtiyat üçün bütün tədbirlərin görülməsi haqqında vədlərindən sonra ermənilər dükanlarını açdıqda, müsəlman əhalisi bircə anda hər tərəfdən berdankalarla (tək atışlı tüfəng-A.M.) onların üstünə atılaraq bazardakı bütün erməniləri qırıblar. Bəzilərini diri-diri yandırıblar. Bütün erməni kəndləri talan və qarətə məruz qalmışdır (5. 1905: 20 may №93). Lakin bir sətir sonra məlumat verilirdi ki, "ətraf kəndlərdə zərər çəkmiş ermənilər öz mülklərini buraxaraq Naxçıvan şəhərinə köçürlər(!)". Əgər doğrudan da ermənilər Naxçıvan şəhərində qırğına məruz qalırdılarsa, nə üçün yenə bu şəhərə üz tuturdular, məlum deyil. Toqquşmalar gecə və ertəsi gün də davam etmiş, azərbaycanlı əhaliyə qarşı qırğın və qarətlər səngiməmişdi.

Naxçıvanda may ayı ərzində baş vermiş hadisələri tədqiq etmək üçün xüsusi istintaq qrupu yaradılmışdı (5. 1905: 4 iyun №104). İstintaq 12 may tarixdə Naxçıvan bazarında baş verən hadisələr haqqında maraqlı məlumatlar əldə edə bilmişdi. Məlum olmuşdu ki, həmin gün bazarda baş verən müxtəlif qanunsuzluqlar Mixail və Aleksandr Manaserovlar qardaşlarının Dəmirçilər cərgəsindən açdıqları atəşin nəticəsində baş vermişdi. İstintaq belə nəticəyə gəlmişdi ki, kütləvi ixtişaşların əsas günahkarları da məhz ermənilər olmuş, azərbaycanlılar isə yalnız sonrakı hadisələr zamanı onlara cavab verməli olmuşdular

(5.1906: 25 fevral №44).

Naxçıvan qəza rəisi Angil bu cinayətlərin başında duraraq fitnəkar hərəkətləri ilə əhalini daha da qızışdırırdı. Şəhərdə olan hökumət qoşunları isə asayişi bərpa etmək əvəzinə əhalini təhqir edir, qarətlə məşğul olurdular.Arxiv fondlarında saxlanılan sənədlər rus qoşunlarının Naxçıvanda müsəlmanların öldürülməsində, dükanların, evlərin talan edilərək yandırılmasında xüsusi fəallıq göstərdiklərini sübut edir. Məsələn, iyun ayının 17-də Zeynəddin kəndində baş vermiş hadisələrlə əlaqədar Naxçıvan şəhərində yerləşdirilən Qafqaz atıcı batalyonunun komandiri tərəfindən iyun ayının 18-də Baş ştaba göndərdiyi hesabatda qeyd edirdi ki, iyunun 17-də ermənilərlə müsəlmanların arasında baş vermiş münaqişənin aradan qaldırılması zamanı silah işlətməyə məcbur olmuş və nəticədə 20 nəfər Zeynəddin kənd sakini öldürülmüşdür. Başqa bir hesabatda iyul ayının 5-də Nursu kəndində özlərini ermənilərdən müdafiə edən 5 nəfərin rus kazakları tərəfindən öldürüldüyü, 11 nəfərin isə yaralandığı göstərilmişdir. Bundan əlavə, mənbələrdə noyabr ayının 30-da Cəhri kəndinin birləşmiş erməni və rus kazakları tərəfindən yandırılması barədə məlumatlar saxlanılmaqdadır (8).

Bütün baş verən hadisələrdə ermənilər günahkar olsalar da, lakin Naxçıvanda baş verən hadisələr haqqında erməni nümayəndələri müxtəlif mətbuat orqanlarına, hakimiyyət instansiyalarına göndərdikləri teleqram və məlumatlarda dezinformasiya və böhtanlar yayır, hadisələrin əsil mahiyyətini təhrif edərək, bütün günahları azərbaycanlıların üstünə yıxmağa çalışırdılar. Bu istiqamətdə xüsusən "Baku", "Novoe obozrenie", "Tiflisskiy Listok", "Russkoe slovo", "Kavkaz" qəzetləri xüsusilə fərqlənirdilər. Həmin qəzetlərdə may ayında Naxçıvanda baş vermiş hadisələr haqqında yalnız ermənilərin mövqeyini əks etdirən materialar verilir, erməni əhalisinin kütləvi qırğına məruz qaldığını "sübut" edən rəqəmlər, faktlar göstərilir və bütün bunların hamısını "qaniçən və vəhşi müsəlmanların" əlinin işi olduğu ictimaiyyətə təlqin edilirdi. Bu təəcüblü deyildi. Çünki adı çəkilən qəzetlər "Daşnaksütun" partiyası, erməni biznes dairələri ilə sıx əlaqədə idi. Məsələn "Baku" qəzetinin redaktoru Enqibarov idi, erməni milyonçularından Qukasov, Yüzbaşev, Xatisov, Vermişev bu qəzetin maliyyələşdirilməsində və fəaliyyətində yaxından iştirak edirdilər. Bu qəzetlərə məlumatları da Naxçıvandan məhz ermənilər göndərirdilər. Tiflis şəhər rəisinə erməni X.Vermişevə göndərilən teleqramlardakı məlumatlar sonralar onun vasitəsilə Qafqaz rus hakimiyyətinə ötürülürdü.

1905-ci il 14 may tarixdə X.Vermişevin adına Naxçıvandan göndərilən məktubda iddia olunurdu ki, "Naxçıvanda artıq üç gündür ki, ermənilərin qırğını gedir. Talan və yanğınlar dəhşətli dərəcədədir. Öldürülmüş, yaralanmış və yandırılmış ermənilərin sayı saysız-hesabsızdır". Azərbaycanlılardan isə yalnız iki nəfərin öldüyünü bildirən məktub müəllifləri erməni ailələrinin xilası üçün tədbirlər görməyi (əslində onların tərəfində çıxış etməyi-A.M.) hakimiyyət orqanlarından tələb edirdilər. A.Melikyan adlı Naxçıvan ermənisinin Vermişevə göndərdiyi teleqramda isə şəhərdə beş gün ərzində ermənilərin kütləvi qırılmasından, erməni kilsələrinin talan edilməsindən bəhs edilir, qoşun hissələri göndərilməsi tələb edilirdi. Eyni məzmunlu teleqramı arximandrit Karapet yepiskop Haregin Satunyana göndərərək Tumbul kəndində 20 ermənінin öldürüldüyünü və yaralandığını göstərmişdi. "Kavkaz" qazetində isə bu kənddə ölənlərin sayının 40-a qədər olduğu göstərilirdi. Arximandrit Tovma isə Vermişevə göndərdiyi teleqramda guya azərbaycanlıların erməni kəndlərini bombaladıqlarını (maraqlıdır: görəsən necə və nə ilə - A.M), kazaklarsız onu dayandırmağın mümkünsüzlüyünü bildirir və canişinə bu barədə xəbər veməyi xahiş edirdi (5. 1905, 20 may, № 93).

Naxçıvanda öz fitnəkar hərəkətləri nəticəsində tam məğlub olacaqlarından qorxan ermənilər və onların İrəvandakı, Tiflisdəki, Bakıdakı liderləri Qafqaz canişininin köməkçisi N.A.Sultan-Krım-Gireyə, Qafqaz şeyxülislamına, Cəfərqulu xan Naxçıvanskiyə, Naxçıvanın digər nüfuzlu şəxslərinə müraciət edərək "müsəlman əhalisinə təsir göstərməyə" və qarşıdurmanı aradan qaldırmağa çağırırdılar (5.1905: 18 may №91).

Naxçıvanda asayişi bərpa etmək üçün Qafqaz canişini Vorontsov-Daşkov general Əlixanov-Abarskini Naxçıvana göndərmiş, onunla birlikdə Şeyxülislam və İrəvan qazisi, erməni yeparxiyasının başçısı mayın 15-də şəhərə gəlmişdilər. Elə həmin gün şeyxülislam, İrəvan, Şərur və Naxçıvan qaziləri, İrəvan arximandriti Karapet və Cəfərqulu xan Qaraxanbəyli, Tumbul və Qoşadizə kəndlərində görüşlər keçirmişdilər. Şeyxül-islamın xahişi ilə ermənilərin yaşadıqları Qaraxanbəyli kəndində görüşdə qonşu Qaraçuq və Bulqan kəndlərindən müsəlman əhali ilə onlar arasında gərginlik həll edilmiş, digər kəndlərdə də sakitlik bərpa edilmişdi. Şeyxül-islamın gəlişi ilə Naxçıvanın digər yerlərində-Culfada, Şərurda, Ordubadda, Əylisdə, Nehrəmdə sabitlik yaranmışdı. Bu məqsədlə İrəvandan Uluxanlı-Culfa yolu ilə Naxçıvan qəzasına

general Əlixanovun rəhbərlik etdiyi 700 piyada, 23 zabitdən ibarət batalyon göndərilmişdi (5. 1905: 20 may №93). Şeyxülislam və digər nümayəndələr Şıxmahmuda da gedərək ermənilərlə söhbət aparmışdı.

May ayının 17-də şeyxül-islamın, arximandritın iştirakı ilə Naxçıvan şəhərində erməni və azərbaycanlı əhalinin yürüşü keçirilmişdi. General Əlixanovun Naxçıvandan N.A.Sultan-Krım Gireyə göndərdiyi teleqramda da bölgədə asayişin bərpa olunmasında Şeyxülislamın və digər dini rəhbərlərin rolu yüksək qiymətləndirilirdi (5. 1905: 22 may, № 95).

Şeyxül-islam "Novoe obozrenie" qəzetinə verdiyi müsahibədə Qafqaz qəzetlərində Naxçıvan və İrəvan quberniyasında baş verən hadisələrin mahiyyətinin təhrif edilməsindən, onunla da vəziyyəti daha da qızışdırılmasından şikayət etmişdi.

Ermənilər bu barışıqdan sonra da öz vəhşiliklərini davam etdirərək azərbaycanlılar yaşayan İtqıran kəndini dağıtmışdılar. 200-ə qədər erməni səhər tezdən əhali yuxuda olarkən kəndə hücum etmiş, bütün əhalini qılıncdan keçirmiş, hətta saman tayasında gizlənmiş uşağa belə rəhm etməmişdilər (5. 1905: 15 may, № 12). Özü də bu hadisə İrəvan quberniyasına yenicə təyin edilmiş general-qubernator prins Lui-Napaleon Naxçıvanda olduğu müddətdə olmuşdu.

28 avqust 1905-ci il tarixdə Naxçıvanda vitse-qubernator knyaz Candinerinin iştirakı ilə yenidən barışıq imzalandı. Ümumiyyətlə, noyabrın 26-a qədər müsəlmanlar və ermənilər bir neçə dəfə də sülh bağlamağa səy göstərsələr də, hər dəfə erməni tərəfinin fitnəkarlığı ucbatından bu səylər bir nəticə vermirdi. Noyabrın 26-da Çeşməbasar kəndinə gələn kazaklar Hacı Nəsir Hacı Nağı oğlunun evini qarət etmiş, bu vaxt Hacının onlara mane olan oğlunu yerindəcə öldürmüşdülər. Hacı oğlunun bu müsibətinə dözməyib kazaklara bir güllə atmış, elə buna görə də ailəsi ilə birlikdə qətlə yetirilmişdi. Bu hadisənin əsas günahkarları kazak dəstəsinin komandiri polkovnik Kazakov və qəza rəisi Angil idi. Faciə naxçıvanlıların qəzəbinə səbəb olmuş, onlar bunu hökumətin hiyləsi olduğunu bildirmişdilər. Azərbaycanlı əhalini qorxutmaq üçün kazaklar və ermənilər əlbir olub şəhərdə atəş açmış, müsəlman bazarını qarət edib yandırmışdılar. Bu zaman dəmiryolu vağzalında olan gürcülər müsəlmanlara köməyə gəlsələr də artıq iş-işdən keçmişdi.

Noyabrın 27-30 arası 85 dükan, 75 anbar yandırılmış, aclıq baş vermişdi. Noyabrın 30-da ermənilər və kazaklar tərəfindən Cəhri kəndi yandırıldı. Ermənilərin kazaklarla birlikdə iştirak etdiyi bu hadisələr zamanı kənddə 60 nəfər, o cümlədən 45 kişi, 5 qadın və 10 uşaq öldürülür. Faciə ilə əlaqədar əhali Naxçıvana gələn İrəvan general-qubernatoru Paskeviçə şikayət etsələr də qubernator boş sözlər vəd edərək heç bir tədbir görmədi. Əksinə, o Naxçıvanda olduğu müddətdə kazaklar şəhərin ikinci hissəsinə də od vurub yandırmışdılar (Ordubadi,1991: 18-22). Xüsusilə qeyd etmək lazımdır ki, 1905-ci ildə başlayan və 1906-cı ilin yazına qədər davam edən, Naxçıvan şəhərindən başqa Ordubad, Kültəpə, Cəhri, Əliabad, Şıxmahmud, Çeşməbasar, Tivi, Tumbul, Böyük Badamlı və s. kəndlərdə baş verən bu hadisələrdə ermənilərlə yanaşı 1904-1913-cü illərdə İrəvanın vitse-qubernatoru olmuş podpolkovnik V. P.Baranovski, İrəvan şəhər hakimi Akamalov, qəza rəisi olanAngil və başqaları fəal şəkildə iştirak etmişlər

Beləliklə, Naxçıvanda 1905-ci ildə baş verən hadisələrdə əsasən azərbaycanlılar zərər çəksələr də, ermənilər onları qorxuda bilmədilər. Bölgədə "qabaqca müharibə tələb etmiş ermənilər nəhayət «büsbütün məğlub olaraq milli səhifələrinə qara bir xətt çəkdirdilər"(Ordubadi, 1991: 23).

Erməni tərəfinin yalanları o dərəcəyə çatmışdı ki, hətta 1906-cı ilin fevralında Tiflisdə keçirilən erməni-müsəlman qurultayında onların nümayəndəsi A.Xatisov çıxış edərək utanmadan "Naxçıvanda 45 erməninin və 1 müsəlmanın öldürüldüyünü, ermənilərin hücum edən tərəf olmadığını" söyləmişdi (Маевский, 1915: 41). Lakin M.S.Ordubadinin həmin hadisəyə dair geniş və obyektiv təsviri, "Kaspi" qəzetində göstərilən faktlar bir daha sübut edir ki, Naxçıvanda da aranı qızışdıran, ilk atəş açan və bununla da azərbaycanlıları cavab tədbirləri görməyə vadar edən erməni tərəfi olmuşdur.

Bu baxımdan Azərbaycan Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində saxlanılan bir sənəd diqqəti cəlb edir. Daşnaksütyun partiyasının Naxçıvan yerli təşkilatının 1905-ci il noyabrın 13-dən 20-dək keçirilmiş iclasının protokolu olan bu sənəddə erməni siyasi təşkilatların əsil mahiyyəti üzə çıxarılır.

Müsəlmanlarla münasibətləri müzakirə edən iclas iştirakçıları öz taktikalarında yalnız terrora və qəfil hücuma üstünlük verdiklərini göstərirdilər. "Hücum qələbənin ən başlıca şərtidir… Əgər istəmiriksə bizi qırıb məhv etsinlər, biz birinci hücum etməli və sarsıdıcı zərbə vurmalıyıq". Qəbul edilmiş qərarda bu və ya digər orqana rayon iclasının göndərdiyi şərtlərə uyğun olaraq müstəqil surətdə hücum etmək hüququ verilirdi. Azərbaycanlıların həyatına zərər vurmaq üçün daşnaklar onları yay vaxtı yaylaqlara köçməsinə imkan verməmək üsuluna əl atmağı məsləhət görürdülər. Eyni zamanda daşnaklar azərbaycanlıların üstünlük

təşkil etdikləri ərazilərdə daha mülayim siyasət yeritməyi, əksinə onların sayca az olduqları yerlərdə isə hücum taktikasına üstünlük verməyi tövsiyə edirdilər. Məsələn, Cəhrini özləri üçün əlverişli yer sayan ermənilər, oradan tatarları (azərbaycanlıları-A.M.) müharibə yolu ilə çıxartmaq lazım olduğunu göstərirdilər. Terrorla bağlı qəbul edilmiş qətnamədə qeyd olunurdu: "Erməni-tatar məsələsində bizim üçün (ermənilər üçün- A.M.) zərərli rol oynayan, dərəcəsindən və vəzifəsindən asılı olmayaraq rəsmi və qeyri rəsmi şəxslərə qarşı terrora əl atmaq və terroru «erməni terrorçu orqanı» adı altında həyata keçirmək"(2, siy. 8,.iş 52).

Naxçıvan hadisələri də, Cənubi Qafqazın bir sıra başqa yerlərində baş vermiş bütün digər münaqişələr də ermənilərin bais olduqları Bakı hadisələrinin bilavasitə nəticəsi idi. Mayevskinin qeyd etdiyi kimi "bu hadisələr qeyri tipik hadisə idi və sübut etdi ki, çox hallarda heç bir günahı olmayan kənd əhalisi zərər çəkmişdir. Naxçıvan hadisələri başqa heç nəyi sübut edə də bilməz"(Маевский, 1915: 41-35).

## Nəticə

Sonda belə bir nəticəyə gəlmək mümkündür ki, tarixi gerçəkləri saxtalaşdırmağa, təhrif etməyə adət etmiş ermənilər guya ki, 1915-ci ildə Osmanlı dövləti ərazisində soyqırıma uğradıqlarını dünya dövlətlərini inandırmağa çalışaraq əslində Anadolu, Cənubi və Şimali Azərbaycan ərazisində, o cümlədən mövzumuzun obyekti olan Naxçıvanda türklərə qarşı həyata keçirdikləri soyqırım və deportasiya siyasətini ört-basdır etməyə çalışırlar. Lakin ermənilərin bütün səylərinə baxmayaraq, Osmanlı, Azərbaycan, Rusiya, İngiltərə və dünyanın digər dövlətlərinin arxivlərində bu gün də saxlanılmaqda olan materiallar əslində ermənilər tərəfindən türk əhalisinə qarşı soyqırımı siyasətinin həyata keçirildiyini sübut edir. Məhz buna görədir ki, Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Təyyib Ərdoğanın XX əsrin əvvəllərində Osmanlı dövləti ərazisində baş verən hadisələrin araşdırılması məqsədilə nəinki Türkiyə və Ermənistan, eyni zamanda dünya dövlətlərinin tarixçilərindən ibarət komissiyanın yaradılması təklifinə Ermənistan tərəfi müsbət yanaşmadı. Çünki Ermənistan tərəfi bilir ki, onların bu cəfəngiyat, uydurma "soyqırımı" iddialarına sözün əsl mənasında heç kim inanmır. Dünyanın bir sıra dövlətləri tərəfindən (ABŞ, İngiltərə, Fransa, Rusiya) tərəfindən süni şəkildə ortaya atılan "erməni məsələsi" əslində həmin dövlətlərin Türkiyəyə qarşı təzyiq vasitəsi kimi istifadə etməsindən başqa bir şey deyildir.

Arxiv fondlarında saxlanılan sənədlər rus qoşunlarının Naxçıvanda müsəlmanların öldürülməsində, dükanların, evlərin talan edilərək yandırılmasında xüsusi fəallıq göstərdiklərini sübut edir. Məsələn, iyun ayının 17-də Zeynəddin kəndində baş vermiş hadisələrlə əlaqədar Naxçıvan şəhərində yerləşdirilən Qafqaz atıcı batalyonunun komandiri tərəfindən iyun ayının 18-də Baş ştaba göndərdiyi hesabatda qeyd edirdi ki, iyunun 17-də ermənilərlə müsəlmanların arasında baş vermiş münaqişənin aradan qaldırılması zamanı silah işlətməyə məcbur olmuş və nəticədə 20 nəfər Zeynəddin kənd sakini öldürülmüşdür. Başqa bir hesabatda iyul ayının 5-də Nursu kəndində özlərini ermənilərdən müdafiə edən 5 nəfərin rus kazakları tərəfindən öldürüldüyü, 11 nəfərin isə yaralandığı göstərilmişdir. Bundan əlavə, mənbələrdə noyabr ayının 30-da Cəhri kəndinin birləşmiş erməni və rus kazakları tərəfindən yandırılması barədə məlumatlar saxlanılmaqdadır (8).

## ƏDƏBİYYAT SİYAHISI

### Azərbaycan dilində:

Arzumanlı V., Mustafa N. (1998). Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı, Qartal nəşriyyatı: 218 səh.

Azərbaycan Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, f.267.

Nəvvab M.M. (1993). 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı, "Azərbaycan nəşriyyatı", "Şuşa" şirkəti": 90 səh.

Ordubadi M.S. (1991). Qanlı illər. 1905-1907-ci illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. Bakı, QXYK: 144 s.

### Rus dilində:

К событиям в Эрванскойгубении. Газ. Каспий, 4 июня 1905 г. №104.

Маевский В. Армяно-татарское смута на Кавказе как один из фазисов армянского вопроса. Тифлис, 1915, 61 с.

Правда о кровавых столкновениях между армянским и мусульманским населением г. Нахичеване в мае месяче 1905 г. Газ. Каспий №44, 25 февраля 1906 г. № 44.

**İnternet saytı:**

https://az.wikipedia.org

## Extended Abstract

The main purpose of writing the article is the wars waged by tsarist Russia with the Khajars and the Ottoman states, as well as the transfer of Armenians to the lands of Iravan, Karabakh, and Nakhchivan in Azerbaijan, according to the relevant articles of the Gulustan (1813), Turkmenchay (1828), and Edirne (1829) peace treaties signed as a result of these wars. to investigate the genocidal policy they carried out against.

It is mentioned in the article that the Armenians who were settled by Tsarist Russia in the ancient lands of Azerbaijan, including Nakhchivan, were inspired by all the happening processes and got caught up in the fantasy of creating "Great Armenia" and started fighting for this artificial idea and soon applied violence against the local population, forcing them to return to their native land. - were displaced from their nests.

At the beginning of the 20th century, the hated Armenians, who completed their political, economic, and organizational preparations, carried out massacres in most regions of Azerbaijan, including Nakhchivan, in 1905-1907. Armenians trying to make up for their defeat in Baku in Nakhchivan committed massacres and looted with the help of Armenians from Yerevan and officials of Tsarist Russia stationed in the region. However, it should be noted with regret that there is very little information about the events that took place in that period. So, apart from the articles in a number of periodical press pages, "Bloody Years" written by M. S. Ordubadi based on witness statements, and "Armenian-Muslim conflict in 1905-1906" by M. M. Navvab, there are almost no sources.

One of the reasons for the paucity of information reflecting the events of that period is the destruction of those sources by the Armenians working in the archive offices in Azerbaijan during the Soviet period. In the end, it was concluded that the Armenians, who are used to falsifying and distorting historical facts, trying to convince the countries of the world that they suffered a genocide in the territory of the Ottoman state in 1915, in fact, in the territory of Anatolia, South and North Azerbaijan, including Nakhchivan, which is the object of our topic, lived against the Turks.

They are trying to cover up their genocide and deportation policy. However, despite all the efforts of the Armenians, the materials stored in the archives of Ottoman, Azerbaijan, Russia, England and other countries of the world, even the information contained in the works of Armenian authors, prove that the policy of genocide against the Turkish population was actually carried out by the Armenians.